"Bakı Gəmiqayırma Zavodu" MMC-nin

"Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit" (SƏTƏM) Siyasəti

"Bakı Gəmiqayırma Zavodu" MMC (BGZ) Xəzər regionunda gəmilərin, mobil və ya stasionar dəniz qurğularının və digər ixtisaslaşdırılmış gəmilərin dizaynı, təkmilləşdirilməsi, tikintisi, sınağı, konversiyası, yenilənməsi və təmiri, həmçinin ofşor qurğu və konstruksiyalarının hazırlanması üzrə SƏTƏM sahəsində ən mütərəqqi təcrübəyə əsaslanan beynəlxalq və yerli sənaye standartlarını tətbiq edir. İşçi heyətimizin SƏTƏM qaydalarını ən əhəmiyyətli amil kimi əsas götürəcəyinə və əməli fəaliyyətimizin əsası olan davamlı inkişafın və qarşılıqlı inamın əldə olunmasında fəal şəkildə iştirakını əsirgəməyəcəyinə inanırıq.

SƏTƏM Siyasəti üzrə bizim başlıca öhdəliklərimiz:

- Beynəlxalq və yerli qanunvericiliyə, qaydalara və digər əlaqədar korporativ tələblərə riayət etmək;
- ISO 14001:2015 və ISO 45001:2018 standartlarının tələblərinə uyğun olaraq işləmək;
- Sağlam və təhlükəsiz iş mühitini təmin etmək və işçi heyətinin zədələnməsinin, iş qabiliyyətinin itirilməsinin qarşısını almaq;
- Davamlı olaraq praktiki SƏTƏM qaydalarının inkişafını təmin etməklə SƏTƏM performansını artırmaq;
- İşçi heyətinin öz vəzifə öhdəliklərini SƏTƏM qaydalarına uyğun olaraq, təhlükəsiz şəkildə və keyfiyyətlə yerinə yetirmələri məqsədi ilə onlara bu yöndə mütəmadi təlimlər keçmək;
- Ətraf mühitin qorunması istiqamətində düzgün planlama və prosedurlar vasitəsilə ekoloji çirklənmənin və fəaliyyət nəticəsində ətraf mühitə yarana biləcək digər mənfi təsirlərin qarşısını almaq;
- Davamlı olaraq ətraf mühitin mühafizəsini və resurslardan səmərəli istifadəni təmin etmək, ekoloji cəhətdən təhlükəsiz texnologiyaları tətbiq etməklə tullantı miqdarını minimuma endirmək, eləcə də, tullantıların təkrar istifadəsinə töhvə vermək;
- Bu Siyasətin BGZ-nin işçi heyətinə, bütün əlaqədar tərəflərə lazımınca çatdırılması və ona tam riayət olunmasına əmin olmaq;
- BGZ-nin fəaliyyət ərazisinin yaşıl zavoda çevrilməsi üçün səy göstərmək.

Bu SƏTƏM Siyasəti davamlı və effektiv tətbiq edilməsi üçün BGZ-nin rəhbərliyi tərəfindən həyata keçirilən təkrar baxış proseslərinin əsas tərkib hissəsi olaraq il ərzində ən azı bir dəfə nəzərdən keçirilir.

Elşad Nuriyev
İdarə Heyətinin sədri

PLC-002 Red.5
Tarix: 02 may 2024